AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

23 MAY 2025-ci il CÜMƏ № 106 (8154) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

# Fundamental dəyərlərə malik güclü birlik

## *Bu il Azərbaycan Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə ev sahibliyi edəcək*




***Türk Dövlətləri Təşkilatının (TDT) yaradılmasında və təşkilatlanmasında Azərbaycan Prezidenti İlham Əliyevin xidmətləri əvəzsizdir. Dövlətimizin rəhbərinin Macarıstanda Təşkilatın Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirakı bunun aydın ifadəsidir. Xalqımız böyük Türk dünyasının önəmli bir parçası olaraq fundamental dəyərlərə malik zəngin türk sivilizasiyasından faydalanmaqla yanaşı, bu sivilizasiyaya öz töhfəsini verməkdən böyük qürur duyur.***

Tarixin bütün dönəmlərində türklər özlərinin qüdrəti, gücü, zəngin dövlətçilik ənənələri ilə seçilmiş, dünyanın ən üstün dəyərlərə malik sivilizasiyalarından birinə sahib olmuşlar. Türk sivilizasiyası dedikdə bəşəriyyətin inkişafına saysız-hesabsız töhfələr vermiş, qədim mədəniyyətə, incəsənətə, hərtərəfli elmə və biliyə, həmçinin sağlam gücə malik olan sivilizasiya nəzərdə tutulur. Bəşər tarixində özünəməxsus yeri olan türk sivilizasiyası əsrlər boyu şərəfli yol qət edərək hazırkı inkişaf səviyyəsinə çatıb. Dünyanın ikili standartlara əsaslanan siyasətinin davam etdiyi bir dövrdə Türk dünyasının birliyinin zəruriliyi özünü daha aydın şəkildə göstərir.

Türk dövlətlərini birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər ölkələrimizin qarşılıqlı fəaliyyətinin əsasını təşkil edir. TDT-yə üzv olan ölkələrlə qardaşlıq münasibətlərə malik Azərbaycan türk dövlətləri ilə əlaqələrini ən yüksək formada inkişaf etdirməkdə və vahid türk ailəsinə daha da yaxın olmaqda maraqlıdır. Dövlətimizin başçısının TDT-yə üzv ölkələrin inteqrasiyasına və inkişafına töhfələri xüsusilə təqdir olunur.

(davamı 3-cü səhifədə)




(əvvəli 1-ci səhifədə)

"Azərbaycan ümumilikdə təşkilatın üzv ölkələrinə 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur. Bu il Türk İnvestisiya Fondunun rəsmi olaraq fəaliyyətə başlaması nəzərdə tutulur. Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız güclənir. Son illər ərzində Azərbaycanda nəqliyyat infrastrukturuna - avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulmuşdur. Nəticədə açıq dənizlərə çıxışı olmasa da, Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir". Bu fikirləri Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi iclasında bildirib. Dövlət başçısı qeyd edib ki, qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaratmış, müştərək müəssisələr qurmuşuq. Orta Dəhlizin bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılmışdır. Orta Dəhlizin rəqəmsallaşdırılmasına böyük önəm veririk. Hazırda Xəzər dənizi limanları arasında nəqliyyat əməliyyatlarının və ticarətin sadələşdirilməsini nəzərdə tutan vahid rəqəmsal platformanın yaradılması layihəsi üzərində işlər davam etdirilir.

Azərbaycan coğrafi mövqeyi və iqtisadi infrastrukturu ilə həm Avropa və Asiya, həm də türk dövlətləri arasında körpü rolunu oynayır. Prezident İlham Əliyev dünyada cərəyan edən ağır siyasi prosesləri nəzərə alıb Azərbaycanın geosiyasi mövqeyini çox düzgün qiymətləndirərək türk dövlətlərinin iqtisadi inteqrasiyasına nail olmaq üçün təkliflər irəli sürür. Bu isə bütün Avrasiya regionundakı dövlətlərin iqtisadi inkişafı üçün geniş imkanlar yaradır.

Bu ilin may ayında İstanbulda Türk İnvestisiya Fondunun təsis iclasının keçirilməsi iqtisadi əlaqələrimizin daha da dərinləşməsinə xidmət edən növbəti uğurlu addımdır. Fond vasitəsilə bir çox sahələrdə birgə layihələrə sərmayə qoyulacaq. Enerji sahəsində strateji tərəfdaşlığımız, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığımız çox əhəmiyyətlidir. Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa ilə Asiya arasında fiberoptik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək Yolu" layihəsi də mühüm təşəbbüslərdəndir.

Ən vacib layihələrdən biri də Orta Dəhlizdir. Dəyişən reallıqların fonunda Azərbaycandan keçən Orta Dəhliz təkcə bizim region üçün deyil, həm də qlobal ticarət və nəqliyyat sistemləri üçün əhəmiyyət kəsb edir. Daha dayanıqlı və daha etibarlı nəqliyyat marşrutlarının və tədarük zəncirlərinin axtarışı fonunda bu dəhlizin əhəmiyyəti artmaqdadır. Türk dövlətləri arasındakı əməkdaşlıq Orta Dəhlizin inkişafına vacib töhfədir. Orta Dəhlizlə daşınmaların həcmi əhəmiyyətli dərəcədə artıb və bu da öz növbəsində onun funksionallığını və ona tələbatı təsdiq edir. Türk dövlətləri arasındakı mövcud əməkdaşlıq və qarşılıqlı dəstək dəhlizin gələcək inkişafı üçün möhkəm təməl qoyur. Xüsusilə qeyd etmək lazımdır ki, nəqliyyat və logistika sahəsində əməkdaşlıq region ölkələrinə qlobal ticarət marşrutlarında daha rəqabətədavamlı mövqe tutmalarına imkan verir. Trans-Xəzər Beynəlxalq Dəhlizi çərçivəsində "vahid pəncərə" prinsipinin tətbiq olunması ilə tranzit gömrük prosedurlarının sadələşdirilməsi üzrə çoxtərəfli görüş keçirilib. Görüşün yekunlarına əsasən Orta Dəhliz boyunca yerləşən ölkələr üçün tranzit portalın çoxtərəfli informasiya sisteminin yaradılması ilə bağlı qərar qəbul olunub. Orta Dəhliz Avropaya ən qısa və daha qənaətli marşrut təklif edir.

Çağdaş dünyada çox mürəkkəb geosiyasi hadisələr cərəyan edir. Məhz bu baxımdan dövrün çağırışlarına lazımi cavab vermək, üzv dövlətlərin təhdidlərə hazır olması, ölkələrin siyasi və iqtisadi cəhətdən inkişafı, güclənməsi üçün Türk Dövlətləri Təşkilatı mühüm rol oynayır. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına böyük önəm verir və vurğulayır ki, Türk Dövlətləri Təşkilatı bizim ailəmizdi, bu inkişaf təmin olunacaq. Bu təşkilat daxilində nəinki iqtisadi və humanitar, hətta hərbi və təhlükəsizlik sahəsində müvafiq işlər aparılmalıdır. Dövlət başçısının qeyd etdiyi kimi, bu illər ərzində birləşmə prosesi baş verir. Artıq İstanbulda qərargah fəaliyyət göstərir. Bir sıra şəhərlərdə Bakıda, Astanada, Daşkənddə təşkilatın qurumları var.




Naxçıvan sazişinin imzalanmasından ötən 16 ildə böyük inkişaf müşahidə olunur. Belə ki, Türk Şurası kimi fəaliyyətə başlayan qurum artıq beynəlxalq təşkilata çevrilib. Hazırda təşkilat çərçivəsində bir sıra mühüm siyasi, iqtisadi və humanitar layihələr həyata keçirilir. Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malik olan böyük bir ailədir. Dövlətlər arasında siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlıq əlaqələri ildən-ilə daha da möhkəmlənir.

Türk dövlətləri arasında əlaqələrin daha da möhkəmlənməsinə səbəb olacaq Türk Dövlətləri Təşkilatı dövlət başçılarının "Şərq və Qərbin görüş nöqtəsi" adlanan qeyri-rəsmi Zirvə toplantısı may ayının 20-21-də Macarıstanın paytaxtı Budapeştə şəhərində keçirilib. Qeyri-rəsmi Zirvə görüşü dövlət başçılarına prioritet sahələrdə əməkdaşlığı inkişaf, regional və qlobal miqyasda ümumi məsələləri həll etmək üçün mühüm imkan yaradacaq. Bundan başqa, tədbirdə təşkilatın ümumi strategiyasını və dünyaya baxışını ifadə edən Budapeşt Bəyannaməsi qəbul edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev tərəfindən imzalanan Bəyannamə 71 bənddən ibarətdir.

Bəyannamədə türk xalqlarının tarix boyu dünya sivilizasiyasına mühüm töhfələrini, o cümlədən Avropa və Asiyanın mədəni və siyasi cəhətdən formalaşmasında davamlı irsini, türk dövlətlərinin dünyada müasir siyasi, iqtisadi və sosial tərəqqiyə, o cümlədən regional, qlobal sülh və təhlükəsizliyə təsir göstərməkdə mühüm rolunu vurğulayan dövlət başçıları TDT-nin təşkilatın institusional əsasını qoyan tarixi Naxçıvan Sazişinin prinsiplərinə, məqsədlərinə və ruhuna sarsılmaz sadiqliyini bir daha təsdiqləyiblər. Türk dövlətlərinin regionda və onun hüdudlarından kənarda rolunu artıran siyasi, iqtisadi, ekoloji, sosial və mədəni nailiyyətləri təqdir edən prezidentlər "Türk Dünyası Xartiyası"nı türk xalqlarının ortaq mədəniyyətinin, adət-ənənələrinin, dilinin və tarixinin əsas ifadəsi və onların ortaq türk kimliyinin möhkəmləndirilməsi üçün birləşdirici çərçivə kimi tanıyıblar. Qırğız Respublikasının sədrliyinin və Macarıstanın TDT-yə üzv dövlətlər arasında çoxşaxəli əməkdaşlığın daha da gücləndirilməsinə olan əzminin yüksək qiymətləndirildiyi Bəyannamə böyük dəyərə malikdir.

Reallıq budur ki, XXI əsrdə yeni dünya düzəninin formalaşdığı bir vaxtda Türk Dövlətləri Təşkilatı gücünü daha da artırır. Malik olduğu resurslar, əhali sayı, coğrafi mövqeyi baxımından türk dünyası artıq qlobal miqyasda əsas geosiyasi, geoiqtisadi güc mərkəzlərindən birinə çevrilir. Macarıstanın Zirvə görüşünə ev sahibliyi bu ölkənin türk dövlətləri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirmək niyyətində olduğunu göstərir. Prezident İlham Əliyevin Macarıstana səfəri təkcə ikitərəfli əlaqələri gücləndirmək yox, həm də Türk Dövlətləri Təşkilatının beynəlxalq aləmdəki rolunun möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Artıq dövlətimizin Mərkəzi və Şərqi Avropa ölkələri ilə də əlaqələri yeni siyasi mərhələyə qədəm qoyub. Xüsusilə, Macarıstanla əlaqələrin möhkəmləndirilməsi son illərdə xarici siyasətimizin mühüm istiqamətlərindən birinə çevrilib. Macarıstan şirkətləri Azərbaycanın "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarında - əsas iki neft və qaz layihəsində pay sahibidir. Azərbaycan keçən ildən etibarən Macarıstana təbii qazın ixracına başlayıb. İki dost ölkə arasında əlaqələr təkcə siyasi və iqtisadi deyil, həm də enerji, təhlükəsizlik və regional əməkdaşlıq sahələrində inkişaf edir. Eyni zamanda Avropa İttifaqının üzvü olan Macarıstan Azərbaycanın Avropa ilə əlaqələrinin inkişafında mühüm rol oynayır. Macarıstanın baş naziri Viktor Orbanın dəvəti ilə dövlətimizin başçısının Budapeştə işgüzar səfəri zamanı keçirdiyi görüşlər, mətbuata verdiyi açıqlamalar da iki ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyindən xəbər verir.

Vətən müharibəsində qazanılan tarixi Zəfər ölkəmizin bütün dünyada nüfuzunu artırıb, onu etibarlı tərəfdaşa, aparıcı regional və beynəlxalq aktora çevirib. Yeni reallıqlar fonunda Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin, beynəlxalq təşkilatların sayı durmadan artır. Azərbaycan qardaş türk ölkələri ilə birgə yaratdığı Türk Dövlətləri Təşkilatını öz ailəsi qismində görür və böyük Türk dünyasına mənsub olduğunu qürurla nümayiş etdirir. Azərbaycan bu il Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə ev sahibliyi edəcək. Bu fakt ölkəmizin türk birliyinin möhkəmləndirilməsində nə qədər maraqlı olduğunu, eyni zamanda verdiyi töhfələrin Türk Dövlətləri Təşkilatının üzvləri tərəfindən yüksək dəyərləndirildiyini nümayiş etdirir. Dövlət başçısı ötən ilin fevralında keçirilən prezident seçkilərində inamlı qələbəsindən sonra andiçmə mərasimində suverenliyinin tam bərpa edilməsi ilə yeni dövrə qədəm qoyan Azərbaycanın qarşısında dayanan hədəflərdən bəhs edərkən bu çağırışı xüsusi vurğuladı ki, bizim ailəmiz Türk dünyasıdır. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Ölkəmizin strateji mövqeyi, zəngin enerji ehtiyatları, tarazlı və praqmatik diplomatik fəaliyyəti Azərbaycanı qlobal əməkdaşlıqda mühüm tərəfdaşlardan birinə çevirib.

**Mustafa KAMAL,**
**"Respublika".**